# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİNİN ÜMUMİ YIĞINCAĞINDA

## "AMEA-da ELMi JURNALLARIN VƏZİYYƏTİ HAQQINDA"

AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanovun təqdimatı

02.04.2021

***İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dünyada baş verməkdə olan qloballaşmanın fəsadları, təbii ehtiyatların sürətlə azalması, insan artımı ilə bağlı yaranmış ərzaq qıtlığı, getdikcə özünü daha çox göstərən çeşidli təbii fəlakətlər və hər bir regionda meydana çıxan digər problemlər yalnız elmin inkişafı nəticəsində öz həllini tapa bilər.***

***Hər bir ölkədə elmin inkişafı, bu vacib sahədə fəaliyyət göstərən kadrların bilik, bacarıq və səriştəsindən, onların yetişdirdikləri mütəxəssislərin səviyyəsindən, apardıqları elmi tədqiqatlar nəticəsində əldə etdikləri uğurlardan, bu müvəffəqiyyətlərin beynəlxalq elmi ictimaiyyət tərəfindən qiymətləndirilməsindən asılıdır.***

***Yaşadığımız informasiya məkanının çox mühüm hissəsini elmi jurnallarda çap olunmuş məqalələr, patentlər və ixtiralar haqqında məlumatlar təşkil edir.***

***Müxtəlif sahələr üzrə ixtisaslaşmış jurnallarda çap edilmiş məqalələr müəlliflərlə yanaşı onların çalışdıqları universitet və institututların, təmsil etdikləri ölkələrin elmi nüfuzunu müəyyən edən və son nəticədə, ölkənin inkişaf səviyyəsinə təsir göstərən amillərdən biridir.***

***Dünyada hər il minlərlə jurnal çap olunur. Aydındır ki, tanınmış mütəxəssislərin bu jurnalların hamısı ilə tanış olması mümkün deyil.***

***Onlar daha çox nüfuzlu nəşrlərdə çap olunmuş, yüksək impakt factorlu jurnallarda öz əksini tapmış elmi nəticələrlə tanış olduqdan sonra işin özünə, onun müəllifinə və ölkəsinə dəyər verir.***

***Bu baxımdan, hər bir ölkədə nüfuzlu jurnalların hazırlanması həmişə aktual olmuş və bu gündə öz aktuallığnı saxlamaqdadır.***

- ✓ *Məlumdur ki, **Web of Science (WOS)** və **Scopus** hazırda dünyada ən nüfuzlu baza olaraq qəbul olunur.*

## *2020-ci ildə:*

| Web of Science (WOS) bazasına | Scopusun bazasına |
| --- | --- |
| 12000-dən çox | 30891 |

*Hər il bu bazalar yenilənir, yeni jurnallar daxil edilir və ya bazadan çıxarılır.*

**WOS-un bazasına ölkəmizin 8 jurnal daxildir:**

1. **“Applied and Computational Mathematics” 2008-ci ildən BDU (İmpact Factor :2,321), Q1.**
2. **TWMS Journal of Pure and Applied Mathematics 2015-ci ildən BDU (əsas baza)**
3. **Azerbaijan Journal of Mathematics 2015-ci ildən Riyaziyyat Cəmiyyəti AMEA RMİ (ilkin baza)**
4. **Proceedings of the İnstitute of Mathematics and Mechanics 2016-cı ildən AMEA RMİ (ilkin baza)**

***WOS-un bazasına ölkəmizin 8 jurnal daxildir:***

***5.Processes of petrochemistry and oil refining 2016-cı ildən AMEA Neft-Kimya Prosesləri İnstitutu (ilkin baza)***

***6.Chemical Problems 2017-ci ildən AMEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutu (ilkin baza)***

7.***SOCAR Proceedings 2017-ci ildən (ilkin baza)***

8.***Xəzər – Khazar Journal of Humanities and Social Sciences 2017-ci ildən (ilkin baza)***

# *Scopusun bazasına da 8 jurnal daxil edilmişdir*

***1.Applied and Computational Mathematics***
***BDU (2018 İF-0.514 $Q_2$/ 2019 İF-2.822, $Q_1$)***

***2.SOCAR Proceedings (2018 İF -0.274, $Q_3$ /2019 İF -0.482, $Q_2$)***

***3.Azerbaijan Journal of Mathematics -***
***AMEA RMİ (2018 İF-0.623 $Q_2$/2019 İF -0.354, $Q_3$)***

***4.Proceedings of the Institute of Mathematics and Mechanics***

***AMEA RMİ (2018 İF- 0.147$Q_4$/2019 İF -0.276, $Q_3$)***

## *Scopusun bazasına isə 8 jurnal daxil edilmişdir*

**5. *Transaction İssue Mathematics, Azerbaijan National Academy of Sciences (2019 İF 0.194, $Q_4$)***

**6.*Journal of Language and Literature***

***(2018 İF 0.125 $Q_2$ /2019 İF 0.150, $Q_1$)***

**7.*Azerbaijan Medical Journal***

***Tibb Cəmiyyəti (2018 İF 0.100 $Q_4$ / 2019İF 0.100, $Q_4$)***

**8.*Azerbaijan Pharmaceutical and Pharmacotherapy Journal***

***(2018 İF 0.105 $Q_4$ / 2019İF 0.100, $Q_4$)***

**2019-ci ildə ölkəmiz elm sahəsində Scopsun siyahısında 231 ölkə arasında 92-ci (Gürcüstan 81, Ermənistan 93), WOS-un siyahısında isə 153 ölkə arasında 90-cı yerdədir.**

*Təbii olaraq qarşıya aşağıdakı suallar çıxır:*

**1. *Yuxarıdakı nəticələr Azərbaycan Dövlətini, elmi ictimaiyyətini qane edirmi?***

**2. *Yuxarıdakı nəticələr Azərbaycanın elmi potensialını əks etdirirmi?***

***3.Yuxarıdakı nəticələr son illərdə ölkəmizdə həyata keçirilən inkişaf yönümlü layihələrə uyğundurmu?***

***4.Əhalimizin sayı və elmi potensialımız yaxın qonşularımızdan xeyli çox olsa da, yuxrıda adı çəkilən elmi bazalarda tutduğumuz yerlər bu potensiala uyğudurmu?***

***5.Həmin nəticələri inkişaf etdirmək üçün hansı addımlar atılmalıdır?***

**Aparılan araşdırmaların ilkin nəticələri göstərirdi ki son illərdə bu sahədə müəyyən uğurlar qazanılsada:**




**Təxminən 5000 nəfər alimin çalışdığı, 40-dan çox elmi tədqiqat müəssisəsi olan AMEA-nın bu günkü elmi nəticələri və hazırlanan elmi jurnalların səviyyəsi ilə razılaşmaq mümkün deyil.**

***Yaxşı məlumdur ki, bu vacib sahədə daha ciddi uğurlar qazanmaq üçün ilk növbədə AMEA-nın elmi tədqiqat institutlarında hazırlanan jurnalların səviyyəsini yüksəltmək, onların dünyanın nüfuzlu bazalarına düşməsinə çalışmaq lazımdır.***

***Bununla yanaşı AMEA alimlərinin hazırladıqları məqalələrin, dünyanın nüfuzlu jurnllarında çap olunmasına nail olmaqda günün vacib məsələlərindəndir.***

***Cəmi bir neçə il ərzində 6 jurnalın dünyanın nüfuzlu bazalarına daxil olması göstərir ki, bu işə məsuliyyətlə yanaşmaqla, daha böyük uğurlar qazanmaq olar.***

***Onu da, xatırlatmaq istəyirəm ki, bu qarşımızda milli məsələ kimi dayanır. Çünki ölkənin dünya ölkələri arasında yeri müəyyənləşdirilərkən həmin ölkədə elmin səviyyəsi mühüm rol oynayır.***

***Bu məsələləri aydınlaşdırmaq və suallara cavab tapmaq məqsədi ilə AMEA-nın Elmi Nəşriyyat Şurası 2018-ci ildə bir ay ərzində*** **AMEA elmi *tədqiqat müəssisələrində hazırlanan jurnalların* monitorinqini *keçirmişdi.***

***Aparılmış* monitorinq *nəticəsində məlum olmuşdur ki,* AMEA-nın *İnstitutlarında çap* olunan 52 *jurnaldan:***

**4-ü WOS-un bazasına**

- **Azerbaijan Journal of Mathematics 2015-ci ildən**
- **Proceedings of the İnstitute of Mathematics and Mechanics 2016-cı ildən**
- **Processes of petrochemistry and oil refining 2016-cı ildən**
- **Chemical Problems 2017-ci ildən**

***3-ü isə Scopsun bazasına***

- ***Azerbaijan Journal of Mathematics***
- ***Proceedings of the İnstitute of Mathematics and Mechanics***
- ***Transaction of Azerbaijan National Academy of Science ISSUE MATHEMATICS***

***daxil olmuşdur.***

***Qalan jurnalların əksəriyyəti ən sadə tələblərə belə cavab verməmişdir.***

***Monitorinqin nəticələri AMEA Rəyasət Heyətinin 14 dekabr 2018-ci il tarixli iclasında müzakirə olundu.***

***Bu məsələ ilə bağlı AMEA Rəyasət Heyəti qərar qəbul etdi.***

***Təəssüf ki, adı çəkilən qərar unuduldu. Onun demək olar ki, heç bir bəndi həyata keçirilmədi.***

***Hesab edirəm ki, bu gün müzakirəyə çıxarılan mövzu çox vacib və aktual məsələyə həsr olunmuşdur.***

***Həmin məsələni müzakirə etmək üçün son iki il ərzində baş vermiş dəyişikliklərin monitorinqi həyata keçirilməlidir.***

***Mövcud vəziyyətdən inkişafa doğru çıxış yolları müəyyən edilməlidir.***

***Hörmətli həmkarlar, bu təqdimatı hazırlamaq üçün mənim bir gün vaxtım var idi.***

***Bir gün ərzində mən yalnız bizim bölmənin jurnallarının bu gün ki, vəziyyəti ilə tanış ola bildim.***

***Açığını deyim ki, digər bölmələrin jurnallarına nisbətən bizim bölmənin jurnallarının səviyyəsi əvvəllər olduğu kimi yenə xeyli yüksəkdir.***

***Sonda bir neçə vacib məsələləri diqqətinizə çatdırmaq istərdim:***

***1. Yaxşı olar ki, jurnalların hamısı ingilis dilində çap olunsun (Bizim bölmənin jurnalları üçün bu daha vacibdir);***

***2. Jurnalın məsul katibi həmin sahədə tanınmış - ciddi alim olmalıdır, bu işi aparmaq üçün onun xüsusi vaxtı olmalıdır;***

***3. Jurnal vaxtı-vaxtında çap olunmalıdır;***

***4. Məqalələrə rəy məsələsinə ciddi yanaşmaq lazımdır;***

***5. Redaksiya heyəti həmin sahədə nüfuzu olan alimlərdən ibarət olmalıdır;***

***6. Redaksiya heyəti və məqalələr bir ölkəni deyil, geniş coğrafiyanı əhatə etməlidir.***

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!